# ÇİYƏLƏK VƏ MORUQ GİLƏMEYVƏLƏRİNDƏ BƏZİ PESTİSİDLƏRİN TƏYİNİ

**Hacıyeva S.R., Qədirova E.M., Nuruyeva K.İ.**

*Bakı Dövlət Universiteti*
*nuruyevakonul@gmail.com*

Pestisidlər kənd təsərrüfatında meyvə və tərəvəzlərin yetişdirilməsində geniş istifadə olunan maddələrdir. Lakin bu tip maddələr yol verilən qatılıq həddini aşdıqda canlı orqanizmlərdə problemlər yaradır və belə məhsullar ekoloji təmiz hesab olunmur.

Analizlər Azərbaycan Qida Təhlükəsizlik Agentliyinin nəzdindəki "Qidaların təhlili" laboratoriyasında aparılmışdır. Giləmeyvə nümunələrində 7 növdə müxtəlif pestisidlər təyin edilmişdir.

**Cədvəl 1. Çiyələk və moruq giləmeyvələrində pestisidlərin miqdari təyini**

| flufenacet | mq/kq | çiyələk <0.005 | moruq 0.05 |
|---|---|---|---|
| imidakloprid | mq/kq | <0.005 | 0.5 |
| tau fluvalinat | mq/kq | <0.005 | 0.5 |
| permezrin | mq/kq | <0.005 | 0.05 |
| emamektin benzoat | mq/kq | <0.005 | 0.05 |
| amitraz | mq/kq | <0.005 | 0.05 |
| azinfos-etill | mq/kq | <0.005 | 0.02 |

Bundan başqa, analiz olunan giləmeyvələr Hövsan qəsəbəsində yetişdirilən ərazidən əldə edildiyindən həmin ərazidən götürülən torpaq nümunəsində də bəzi pestisidlər təyin edilmişdir.

**Cədvəl 2. Hövsan ərazisindən götürülmüş torpaq nümunəsində pestisidlərin miqdarı**

| Pestisidlər | Torpaq nümunəsi |
|---|---|
| | mq/ kq |
| lindan | 6.2 |
| delta HCH | <1 |

| | |
|---|---|
| aldrin | <1 |
| dieldrin | <1 |
| endrin | <1 |
| endrin keton | <1 |
| endrin aldehid | <1 |
| pp DDE | 12.7 |
| pp DDD | 2.2 |
| pp DDT | 87 |
| endosulfan I | 1.3 |
| endosulfan II | <1 |
| endosulfan sulfat | 1.8 |

Beləliklə, müəyyən edilmişdir ki, tədqiq edilən çiyələk (albion növü) və moruqda,eləcə də Hövsan ərazisindən götürülən torpaq nümunəsində pestisidlər norma çərçivəsindən kənara çıxmamışdır. Bu isə onu deməyə əsas verir ki,satışa çıxarılan giləmeyvələr standart normativlərə uyğun gəlir və qida kimi istifadə üçün yararlıdır.